

# Bakıdan Trabzona könül yolu

## Təəssürat anlamlı yol qeydləri

*Əbülfət MƏDƏTOĞLU*

**(Əvvəli ötən saylarımızda)**

Oturduğum kürsüdən qalxıb yardımçılarının müşayəti ilə meydana doğru gələn Trabzon Orta Şəhər bələdiyyə başqanı, çox hörmətli Əhməd Metin Gənclə salamlaşıram. Köhnə tanışlar kimi hal-əhval tuturuq. Səhhətimlə maraqlanır. Bir problemin olub-olmadığını soruşur. Və bu "atüstü", həm də tələsik söhbət zamanı ölkəmizlə də ilgilənir. Azərbaycanın bugünkü durumunu bir qardaş məmləkət olaraq Türkiyə üçün önəmli olduğunu, xüsusilə hər iki ölkənin prezidentlərinin bir-birinə qardaş güvəncini dilə gətirir. Başqan Əhməd Metin Gənc böyük məmnunluq hissiylə Azərbaycan və Türkiyə əlaqələrinin inkişafından danışdı. O bildirdi ki, bizim qardaşlığımız, dostluğumuz dövlətlərimizin siyasi, iqtisadi qüdrətinin artmasına, dünya siyasətində bir mövqedən çıxış etməmizə dəstək olur. Artıq birmənalı şəkildə qəbul olunub ki, Türkiyə olan yerdə Azərbaycanla, Azərbaycan olan yerdə Türkiyə!

Biz qısa söhbətimiz vaxtı bu gün Türkiyədə gerçəkləşən seçkilərin də önəminə toxunduq. Cümhur başqanı Rəcəb Tayyib Ərdoğanın və hakim partiyanın həyata keçirdiyi siyasətin qardaş ölkəni qətiyyətli şəkildə irəli apardığını və ölkə həyatındakı önəmli hadisələrin xalq tərəfindən dəstəklənməsini bələdiyyə başqanı xüsusi vurğuladı. Biz sağollaşıb ayrılarkən dəyərli bələdiyyə başqanımız Əhməd Mətin Gənc mütləq görüşüb bir türk qəhvəsi içməyə zaman ayıracağını da mənə xatırlatdı. Onun bu səmimi dəvəti təbii ki, mənim üçün çox xoş idi. Və bu yazını diqtə etdiyim anlarda da həmin o xoş təəssüratın təəssüratı ilə yaşayıram...

Meydandan ayrılıb dəniz sahilinə doğru addımlayıram. Düzdür, gedəcəyim yer bir az uzaqdı, amma sahil boyunca gedəndə bu uzaqlıq o qədər də hiss olunmur. Çünki sahildə gəzişən insanlar, sahilə üz tutan ləpələr bir-birilə elə harmoniya yaradıblar ki, sanki görüşə, həmsöhbət olmağa çıxıblar. Mən də sahildəki adamların arasında öz yerimi tuturam və sahil boyu ləpələrin pıçıltısını dinləyə-dinləyə Sahil Testlərinə doğru gedirəm. Sanki dalğalar pıçıldayır mənə bu qeyri-adi şəhərin - mənim Qarabağımın əkizi olan Trabzonun şəninə ürəyimdən gəlib keçən misraları:

**Dəniz çəkib aparır**
**Gözlərimi özüylə...**
**Dəniz mənim gözümlə -**
**Mən dənizin gözüylə**
**Sənə baxıram -**
**Sahildəki şəhər!**

**Bu dalğa təpələrin**
**Sinəsini əzə-əzə**
**Qırçınlı ləpələrin**
**Üstündə gəzə-gəzə**
**Sənə baxıram**
**Sahildəki şəhər!**

**Ürəyim dəniz boyda**
**Ona sıxmışam səni**
**Sevgimə qolunu aç**
**Utandırma gəl, məni!**
**Sənə baxıram -**
**Sahildəki şəhər...**

Mən sahil boyu gedə-gedə hərdən dənizin ən yaxın ləpədöyəninə düşürəm. Gözümü göz yaşından da duru sulara zilləyirəm. İnanın ki, bu bir gerçəkdi. Qara dənizin Trabzon sahili boyundakı suları göz yaşlarımdan da durudu. Suya düşmüş iynəni də görmək mümkündü. Və buradaca içimdən bir xoş, amma həm də qəlbi göynədən duyğu keçir. Biz niyə Xəzəri bu cür qoruyub saxlaya bilmirik. Axı Bakı bulvarına düşəndə ləpələrin bulvar boyu sahilə yönəltdiyi əşyalar, tullantılar adamın xoş əhvalına bir pərişanlıq qatır, bir təəssüf hopdurur. Xüsusilə cavanların əllərindəki su qablarını boşalandan sonra dənizə atması bizim şəhərimizin gözəlliyinə xələl gətirən bir məqamdır. Üstəlik, Bakının hər yerində küləklərin oynatdığı sallofan torbalar, həmçinin müxtəlif enerji içkilərinin qabları və sairələr Trabzonun Qara dəniz sahili boyunca gəzərkən bir dəfə də olsun qarşıma çıxmadı...

Təqribən bir saat tələsmədən gəzə-gəzə qaldığım ünvana, Sahil Testlərinə gəlirəm. Elə bu ləpələrin ürəyimi, ruhumu oxşadığı gözlərimi çəkib apardığı məqamda yadıma bu şəhərə ilk gəlişim zamanı məhz bu ləpələrin pıçıltısıyla şeirləşdirdiyim misraları xatırlayıram. O zaman yazmışdım ki:

**İlk dəfə**
**Qara dənizin**
**Türkiyə sahili -**
**Trabzon**
**ləpələrin**
**qumları öpən**
**qırçınlarını**
**saya-saya**
**mən**
**dənizin dibini görüb,**
**inandım.**
**Burada**
**iynə də**
**düşsə suya**
**gözüyumulu**
**əlini atıb**
**tapıb**
**götürə bilərsən...**
**Sən bu göz yaşımdan**
**duruluğu**
**özün görməsən**
**bəlkə də**
**sözümə inanmazsan,**
**gülərsən...**
**Olsun**
**yəqin ki,**
**sən də**
**bu sahildə**
**nə vaxtsa**
**bir gün**
**güzgülənərsən!..**



Trabzon Orta Şəhər bələdiyyə başkanı Əhməd Mətin Gənc

Sahil testlərindəki mənə ayrılmış otağın qapısını açıb içəri keçirəm. Əslinə qalsa heç otaqda oturmaq həvəsim yoxdu. Çünki bu fürsəti əldə etmək və bu yerlərə bir də nə vaxtsa gəlmək o qədər də asan iş deyil. Ona görə də Allahın bu gözəl fürsətindən, dostların yaratdığı şəraitdən sona qədər yararlanmaq, Trabzonla, Qara dənizin sularıyla burdakı dəyərli insanlarla həmişə baş-başa qalmaq, daha çox söhbətləşmək, fikir bölüşmək haqqımı reallaşdırmaq mənə daha vacib və daha xoşdur. Mən də bu düşündüklərimin mahiyyətini özüm üçün təkrar-təkrar vurğulayıb otağın balkonundan dənizə boylanıram. Fikir, xəyal məni uzaqlara çəkib aparır. Yadıma kəndimiz, kəndimizin sağ və sol cinahlarından axıb gedən dağ çayları düşür. Mənə elə gəlir ki, bu an eşitdiyim ləpə pıçıltıları məhz indi əlim çatıb ünüm yetməyən həmin o girovluqda olan çaylarımın səsidi...

Çox qəribədi, insan yaşlaşdıqca təkcə xatirələr yox, həm də doğulduğu torpaq onu daha çox özünə çəkir, daha çox düşündürür. Bu mənada mən istər Gürcüstan ərazisində, istərsə də Trabzonda olduğum, gördüyüm yerlərin, mənzərələrin Qarabağla oxşarlığını, bənzərliyini xəyalən müqayisə edirəm. Və hər yerdə də, xüsusilə Trabzonda Şuşanın, Kəlbəcərin, Laçının, Zəngilanın, Qubadlının az qala tam oxşarlarını görmüşəm. Və bu gördüklərim də məni bir qaçqın, bir yurdsuz nisgilli insan kimi həmişə içimdən paralayıb... içimdən elə vurub ki, dərdlərim az qala qan fışqırıb...

Həyat gerçəkliyi danılmaz, olduğu qədər də sərtdi. Onunla üz-üzə dayananda geri çəkilməyə yer qalmır. Elə mən özüm də xatirələrin, yuxuların nə vaxtsa gerçək olacağına, geri dönəcəyinə özümü inandırmağa çalışsam da hərdən susmağa, özümü öz içimdə bir küncə sıxmağa da məcbur oluram. Axı nə qədər xəyal qurmaq, nə qədər xatirə danışıb yazmaq olar.

Gerçəklik isə bu danışılanı, bu yazılanı öz kölgəsində boğur, onun səsinin çıxmasına imkan vermir. Belə məqamda təsəllim yalnız içərisində olduğum anın mənə diqtəsidi, məkanın mənə təsiridi, dostların mənə söylədikləridi.

Bəli, məhz bu gerçəkliyə söykənib Trabzon şəninə içimdən keçənləri sizə də çatdırıram. Və düşünürəm ki, gördüyümü, şahidi olduğumu oxucuya çatdırmaq heç də qəbahət deyil. Həmçinin bu yazıların mayasında reklam yox, yalnız günün sözü və bu günün Trabzonu dayanır. Siz də bu qədim ünvana, bu gözəl məkana üz tutsanız mənimlə həmfikir olacağınıza şübhə etmirəm. Ona görə də deyirəm:

**Düşündüklərim**
**qəribə**
**gələ bilər sizə...**
**amma mən**
**inanıram ki,**
**hər səhər**
**Trabzon**
**yuxusuyla birgə**
**ağrı-acısını da**
**çıxarıb əynindən**
**atır dənizə...**
**odur ki,**
**bu şəhər**
**adama**
**hər səhər**
**daha təmiz**
**və işgüzar görünür.**

Deyə bilərsiniz ki, hissə qapılırsan. Gördüklərini, müşahidə etdiklərini daha çox qabardırsan. Şairlik, yazı-pozu həvəsi səni bu şəhərin fanatına çevirir... Mən deyə biləcəyim bu iradları, bu replikaları sakit şəkildə, anlayışla qəbul edirəm, dinləyirəm və sizin dediklərinizin də hardasa bir həqiqət olduğuna şübhə etmirəm. Amma hər kəs öz həqiqətində, öz məntiqində qalsa, yəqin ki, müqayisələrə də, mübahisələrə də, həmçinin gəzib görməyə də bir ipucu qalar. Yəni mənim tərənnüm etdiyim Qara dəniz sahilindəki bu qədim şəhərlə bağlı sizin də maraqlarınız yaranar və bi istiqamətdə gəzmək, görmək yolunu tutanlar heç də peşiman olmazlar...

Bax, həmin o söylədiklərim, yazdıqlarım və sizlərin də nə vaxtsa görəcəkləriniz nə vaxtsa üst-üstə düşərsə, bundan məmnun qalaram. Yazdıqlarımın, yaşadıqlarımın məni kimi sizlərə də hər zaman könül rahatlığı verəcəyinə sevinərəm. Düşünürəm ki, elə belə də olacaq. O ki, qaldı...

**(Ardı növbəti sayımızda)**



Trabzon Orta Şəhər bələdiyyə binası